

Firəngiz ƏHMƏDOVA

Qayıdıb yenə də özümə gəldim,
Gördüm ayaqlarım sözümdən çıxıb.
Bir it qarnını doyurmaq üçün,
Sümüyüm ayrılıb dizimdən çıxıb.
Yığıb kölgələri çadır qurmuşam,
Bilmirəm içimdə vaydı, yoxsa toy.
Mənim sənə qaçan bu küt ağlımı,
Ütüyə gəlməyəqabığımı soy.
Ağzımın dadına acıllıq düşüb,
Məndə alışacam bu qan tamına.
Sallanıb evimin pəncərəsindən,
Mən də yıxılacam qəbir damına.

## QAÇA BİLMƏZSƏN

Mənim də kölgəm uzun,
Sən də mənim boydasan.
Nə olsun ki kənardan,
Sənin əlin boydayam.
Çoxla kəm kimiyik.
Sən məndən qaça bilməzsən.
Sənin də telin qısa,
Mən də saçı kəsiyəm.
Sənin səsin kallaşıb,
Mənsə səsinaziyəm.
Zillə bəm kimiyik.
Sən məndən qaça bilməzsən.
Qoşa addım atırıq,
Beş qarışdır evimiz.
Bircə rəngi başqadır,
Göy-qaradır gözümüz,
Göylə yer kimiyik.
Sən məndən qaça bilməzsən.

* * *

Köhnə mahnılar kimisən,
nəqarəti yerinə düşən.
Kipriyim sancağın olsun,
Saçlarından telinə düşən.
Üzünü sıx yanağıma,
Mən də sənin rəngə düşüm.
Bir şirin nabatın olum,
Dodağından dilinə düşüm.
Başım çiyninə çatmadı,
Uzat əlini oxşayım.
İki qarış uzunluğu,
kəmərin olub belinə düşüm

## BU ÜZ

Qış gəlib bulud gözünə,
Qaryağır yerin üzünə.
Boylanım sənin üzünə,
Bu üz məni üşəndirir.

O sürünən qəm bəsidi,
Oxuyan bayquş səsidi.
Azan Allah naləsidi,
Bu söz məni üşəndirir.
İslandım çətir altında,
Kipriyimə çıxdı yaşım.
Qan qoxan ətir altında,
Bu göz məni üşəndirir.
Ağac balasıdı əsa,
Yapışmağa əlim olsun.
Gəlsə başa gəlir bəla,
Bu diz məni üşəndirir.



kaspi.-2016.-29-31 oktyabr.-S.22.